


# "Qarabağ bölgəsinin xalçaçılıq tarixi"

## kitabının təqdimatı keçirildi

AMEA-da "Azər-İlmə" Xalçaçılıq Mərkəzinin rəhbəri, Əməkdar incəsənət xadimi, tarix üzrə fəlsəfə doktoru Vidadi Muradovun Azərbaycan, rus və ingilis dillərində nəşr olunmuş "Qarabağ bölgəsinin xalçaçılıq tarixi" adlı kitabının təqdimat mərasimi keçirildi.

Tədbiri giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli Qarabağ xalçaçılıq məktəbinin tarixindən bəhs edən nəşrin əhəmiyyətin dəndanışdı. Bildirdi ki, Azərbaycanda xalçaçılıq ənənələri qorunur və xalça sənəti özünün yeni inkişaf dövrünü yaşayır.Bu sahədə dövlətimizlə yanaşı, Heydər Əliyev Fondu da mühüm işlər görür. 2011-ci ildə Heydər Əliyev Fondu tərəfindən "Azərbaycan xalçaları" kolleksiyasının nəşr olunması, Azərbaycan xalçaçılıq sənətinin dünyada tanıdılması istiqamətində həyata keçirilən layihələr bu işlərin tərkib hissəsidir.



S17772



Akademik İsa Həbibbəyli qeyd etdi ki, təqdim olunan kitab "Azərbaycan xalçaları bütün qrupları ilə" adlı elmi-fundamental layihənin davamıdır. Burada Qarabağın tarixi inkişafı nəzərdən keçirilir, bölgədə toxunan xalçaların ümumi xarakteristikası, xalçalar, xalçaçılar, xalça tacirləri, həmçinin boyaqçılar barədə məlumatlar və fotoşəkillər təqdim olunur, toxunan əsas xalça nümunələri, onların üzərindəki elementlərin semantikasından söz açılır.

Bildirildiki, AMEA və "Azər-İlmə" Xalçaçılıq Mərkəzinin birgə layihəsi olan kitabda Qarabağ bölgəsinə daxil olan Ağcabədi, Ağdam, Ağdərə, Bərdə, Beyləqan, Cəbrayıl, Füzuli, Kəlbəcər, Laçın, Qubadlı, Şuşa, Tərtər, Xankəndi, Xocalı, Xocavənd, Zəngilan rayonlarının 378 xalçaçılıq məntəqəsini əhatə edən ekspedisiya materialları öz əksini tapıb. Kitaba bölgənin inzibati-siyasi, etnik və sosial-iqtisadi tarixi, həmçinin xalçaçılıq tarixi, burada toxunan xalçaların üzərində öz əksini tapmış əsas simvollar haqqında oçerklərdə daxildir. Burada toxunmuş XIX-XX əsrlərə aid 415 xovlu və xovsuz xalçaların, xalça məmulatlarının rəngli fotoşəkilləri Qarabağ xalçalarının texniki, bədii-üslubu rəngarəngliyini əks etdirir.

Tədbirdə çıxış edən akademiklər Teymur Bünyadov, Rafael Hüseynov, AMEA-nın müxbir üzvü Yaqub Mahmudov və başqaları Qarabağ xalçaçılıq tarixindən bəhs edən nəşri yüksək qiymətləndirdilər. Çıxışlarda qeyd olunduki, maddi-mənəvi sərvətimiz olan xalçaçılıq sənəti dövlətin diqqət və qayğısı sayəsində qorunur, yaşayır və inkişaf edir. Bu sahədə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın xidmətləri xüsusi vurğulandı.

Sonda kitabın müəllifi, tarix üzrə fəlsəfə doktoru, professor Vidadi Muradov tədbirin təşkilatçılarına və iştirakçılarına, həmçinin kitabın işıq üzü görməsində əməyi olanlara minnətdarlığını bildirdi.

*http://www.science.az*




